

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Oktyabr 2020

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
Made in Azerbaijan

“AZƏRBAYCANIN XARİCİ DÖVLƏT BORCU DÜNYADA ƏN AŞAĞI SƏVİYYƏLƏRDƏDİR, ÜMUMİ DAXİLİ MƏHSULUN TƏQRİBƏN 20 FAİZİNİ TƏŞKİL EDİR. BU GÖSTƏRİCİYƏ GÖRƏ AZƏRBAYCAN DÜNYADA 9-CU YERDƏDİR. NEFT İXRAC EDƏN DÖVLƏTLƏR ARASINDA ƏN AZ XARİCİ DÖVLƏT BORCU OLAN AZƏRBAYCANDIR. ”

“COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi” mövzusunda dövlət və hökumət başçılarının toplantısında İlham Əliyevin nitqi



Pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz – iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2020-ci ilin yanvar-sentyabr aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 354,2 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-sentyabr aylarında 462,4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

2020-ci ilin oktyabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 15,0 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 20

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-sentyabr ayları** ərzində qeyri-neft sektoru üzrə **1,3 milyard** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **sentyabr ayında** qeyri-neft sektoru üzrə ixrac **129,5 milyon** ABŞ dolları təşkil etmişdir

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2020-ci ilin doqquz ayı ərzində Azərbaycandan **10,6 milyard** ABŞ dolları, o cümlədən qeyri-neft sektoru üzrə **1,3 milyard** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Bu ilin yanvar-sentyabr ayları ərzində Rusiyaya 485,9 milyon, Türkiyəyə 252 milyon, İsveçrəyə 166,1 milyon, Gürcüstana 99,6 milyon və Çinə 33,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2020-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor - 167,8 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 150 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (82,7 milyon ABŞ dolları) üçüncü olub.

2020-ci ilin 9 ayı ərzində meyvə-tərəvəz ixracı **402 milyon**, pambıq lifi ixracı **83,9 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **73,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **60,3 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **38,2 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **122,4 milyon**, pambıq ipliyi ixracı **12 milyon**, spirtli və spirtsiz içkilərin ixracı **9 milyon**, şəkər ixracı **12,4 milyon**, bitki və heyvan mənşəli piylər və

yağlar ixracı **17,3 milyon**, çay ixracı **6,7 milyon** ABŞ dolları təşkil edib.

2020-ci ilin sentyabr ayında qeyri-neft sektoru üzrə ixrac isə 129,5 milyon ABŞ dolları təşkil edib. 2020-ci ilin sentyabr ayında yeyinti məhsullarının qeyri-neft sektorunda payı 30,5 faiz, qeyri-yeyinti sektoru üzrə isə 74,2 faiz təşkil edib. Yeyinti məhsullarının ümumi ixracda payı keçən ilin eyni dövrü ilə müqayisədə 3,9 faiz artıb.

Bu ilin sentyabr ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (35,7 milyon ABŞ dolları), İsveçrəyə (27,8 milyon ABŞ dolları), Türkiyəyə (25,1 milyon ABŞ dolları), Gürcüstana (7,6 milyon ABŞ dolları) və İran (6,9 milyon ABŞ dolları) ixrac edilib.

2020-ci ilin sentyabr ayında qeyri-neft sektoru üzrə ixracda qızıl (25,8 milyon) birinci, elektrik enerjisi (9,3 milyon ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı – (8,3 milyon ABŞ dolları ) üçüncü yerdə qərarlaşıb.

MADE IN AZERBAIJAN

2020-Cİ İLİN **yanvar-sentyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



2020 İXRAC İCMALI OKTYABR

# 2020-Cİ İLİN **sentyabr ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi** **(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2020-Cİ İLİN **yanvar-sentyabr aylarında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI OKTYABR

| Mal | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 167,8 | 142,3 |
| Qızıl | 150 | 120,8 |
| Pambıq mahlıcı | 82,7 | 85,5 |
| Fındıq ləpəsi | 67,4 | 87,9 |
| İlkin formalı polipropilen | 53,1 | 53,6 |
| Elektrik enerjisi | 51,9 | 62,9 |
| Albalı və gilas | 48,7 | 42,3 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 36,1 | 48 |
| Metanol | 35,4 | 53,5 |
| Digər | 589,2 | 716,3 |












# 2020-Cİ İLİN **sentyabr ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI OKTYABR

| | 2020 | 2019 |
|---|---|---|
| Qızıl | 25,8 | 13,1 |
| Elektrik enerjisi | 9,3 | 4,5 |
| Qabığı təmizlənmiş meşə fındığı | 8,3 | 11,7 |
| Sair təzə meyvələr | 6,3 | 4,9 |
| Pambıq mahlıcı | 6,1 | 0,41 |
| Metanol (metil spirti) | 5,3 | 5,4 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 3,8 | 8,1 |
| Alma | 3,8 | 4,2 |
| Digər yağlar və məhsullar | 3,2 | 5,3 |
| Digər | 57 | 78,4 |












# Yanvar - sentyabr aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

| Ay | 2019 | | 2020 | |
|---|---|---|---|---|
| Yanvar | Xurma | 12,6 | Qızıl | 16,3 |
| Fevral | Elektrik enerji | 19,4 | Pambıq mahlıcı | 19,5 |
| Mart | Fındıq ləpəsi | 13,7 | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (Pomidor) | 24,2 | Tomat (Pomidor) | 29,4 |
| May | Tomat (Pomidor) | 54,6 | Tomat (Pomidor) | 49,7 |
| İyun | Tomat (Pomidor) | 33,8 | Tomat (Pomidor) | 39,2 |
| İyul | Qızıl | 14,7 | Albalı və gilas | 16,4 |
| Avqust | Qızıl | 22,7 | Qızıl | 28 |
| Sentyabr | Qızıl | 13,1 | Qızıl | 25,8 |

2

# 2020-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2020-cu ilin yanvar-sentyabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir. Cari ilin yanvar-sentyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Socar Polymer" MMC, "Land Lojistic" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Sun Food" MMC, "Global Trade Group" MMC, "Fruit Store" MMC, "Baku Steel Company", "Fruit City Group" MMC və "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və "Kaspian Drilinq Kompani Limited" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2020-Cİ İLİN **yanvar-sentyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2020-Cİ İLİN **yanvar-sentyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI OKTYABR



# 2020-Cİ İLİN **yanvar-sentyabr aylarında "Azərkosmos" ASC 30,9 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2020 İXRAC İCMALI OKTYABR



2020-ci ilin yanvar- sentyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 30 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 89 faizini təşkil etmişdir.

2020-ci ilin sentyabr ayında isə "Azərkosmos" ASC dünyanın **11 ölkəsinə 522 min** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| ABŞ | 9,1 mln $ |
| Birləşmiş Krallıq | 7,8 mln $ |
| Fransa | 7,2 mln $ |
| Malayziya | 3,9 mln $ |
| BƏƏ | 948 min $ |



2020-ci ilin **yanvar-sentyabr aylarında** xaricilər Azərbaycanda **BANK KARTLARI VASİTƏSİ** ilə **354,2** milyon manatlıq əməliyyat aparmışlar

Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməmiş, mart ayından başlayaraq bu sahədə ciddi tənəzzülə səbəb olmuşdur. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 155 ölkəsindən 686,3 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,5 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

2020-ci ilin yanvar-sentyabr aylarında ölkəmizə gələnlərin 28,1 faizi Rusiya Federasiyası, 24,9 faizi Gürcüstan, 18,1 faizi Türkiyə, 8,3 faizi İran, 2,1 faizi Ukrayna,1,8 faizi Hindistan, 1,7 faizi Səudiyyə Ərəbistanı, 1,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,1 faiz olmaqla Pakistan, Türkmənistan və Qazaxıstan, 1,0 faizi Küveyt, 0,9 faizi Böyük Britaniya, hər birindən 0,7 faiz olmaqla Özbəkistan, İraq və Belarus, 0,6 faizi İsrail, 5,8 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 78,7 faizini kişilər, 21,3 faizini qadınlar təşkil etmişdir.

Cari ilin yanvar-sentyabr aylarında Çindən gələnlərin sayı 14,0 dəfə, Cənubi Koreyadan – 12,2 dəfə, İsraildən – 9,2 dəfə, Polşadan – 9,0 dəfə, Yaponiyadan – 8,8 dəfə, İraqdan – 8,4 dəfə, Səudiyyə Ərəbistanından – 7,8 dəfə, Macarıstandan – 7,2 dəfə, Omandan və ABŞ-dan – 6,4 dəfə, Kanadadan və Birləşmiş Ərəb Əmirliklərindən – 6,3 dəfə, Fransadan – 5,7 dəfə, Almaniyadan və Türkmənistandan – 5,2 dəfə, Qətərdən – 5,1 dəfə, Niderlanddan – 5,0 dəfə, Böyük Britaniyadan – 4,9 dəfə, Qazaxıstandan – 4,5 dəfə, Pakistandan – 4,4 dəfə azalmışdır.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

## AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | 99,8 | 88,3 | 85,2 |
| Fevral | 91,1 | 85,3 | 72,9 |
| Mart | 105,8 | 98,0 | 53,9 |
| Aprel | 109,7 | 103,2 | 19,7 |
| May | 107,3 | 100,9 | 24,3 |
| İyun | 106,7 | 115,1 | 23,7 |
| İyul | 126,3 | 134,6 | 23,0 |
| Avqust | 141 | 137,4 | 25,6 |
| Sentyabr | 114,6 | 106,2 | 25,9 |
| CƏMİ | 1002,3 | 969 | 354,2 |

3

# AZEXPORT.AZ PORTALINA 2020-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA 462,4 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri**
**2 milyard 47 milyon** ABŞ dolları
təşkil etmişdir

2020-ci ilin yanvar-sentyabr aylarında Azexport.az portalına **462,4 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 9 ayında portal daxil olan ixrac sifarişləri dəyər baxımından 6 faiz artmışdır.

2020-ci ilin sentyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 33 milyon ABŞ dolları təşkil etmişdir.

Cari ilin sentyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq , fındıq, pomidor, soğan, yumurta, badımcan, kartof, kərə yağı, yer kökü, tütün, şərab, tikinti materialı, qənnadı məhsulu, nar, nar şirəsi, mühərrik yağı və s. mallara daxil olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 30 sentyabr tarixinə kimi (45 ay ərzində) Azexport.az portalına dünyanın 142 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 47 milyon ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **Azexport.az** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**
İyun - **45,6**
İyul - **55,0**
Avqust - **54,9**
Sentyabr - **33**

2017-ci il ərzində
**CƏMİ - 475**

2018-ci il üzrə
**CƏMİ - 514,1**

2019-cu il
**CƏMİ - 595,7**

2020-ci il
**CƏMİ - 462,4**



Son **45 ay** ərzindəki sifarişlərin cəmi - **2 047,2**

# 2020-Cİ İLİN **sentyabr ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2020 İXRAC İCMALI OKTYABR

**Pambıq lifi**



**Fındıq**



**Pomidor**



**Soğan**



**Toyuq yumurtası**



**Badımcan**



**Kartof**



**Kərə yağı**



**Yer kökü**



**Tütün**



**Şərab**



**Tikinti materialı**




**Qənnadı məhsulu**



**Nar və nar şirəsi**



**Mühərrik yağı**



5

# 2020-Cİ İLİN OKTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 15 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2020-ci ilin oktyabr ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən 108 dəfə müraciət daxil olunub. Ümumilikdə 119 ədəd sertifikat (66 ədəd mənşə, 34 ədəd baytarlıq, 7 ədəd Qida təhlükəsizliyi sertifikatı, 12 ədəd CİTES) verilib.

Cari ilin oktyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **15 (14,939,615.96) milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Oktyabr ayında "Baku Steel Company", "AzərGold", "T. Əhmədov adına AZNAR", "Sun Food", "Atena", "Camal", "Fors", "AzVarvara", "Organic Meat", "Milk-Pro", "Vitoriya", "Caspian Natural", "Kael Elektrik Elektronik", "Sheep Casing BTS", "X.B.İmport", "Azerbaijan Travel Agency", "Bakı şəhər Heyvanat parkı" şirkətləri və fiziki şəxs olaraq Salamov Rafiq, İsmayılov Altay, Ramazanov Qadir, Lətif Lətifov, Tünzalə Ağayeva müraciət edərək sertifikat əldə etmişlər. Qeyd olunan hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metallar, nar, alma, albalı, portağal şirələri, narşərab, bitki və günəbaxan yağları, tibbi zəli, elektron avadanlıqların təmizlənmiş hissələri, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların əti və kürüsü, ət konservi, pendir, dondurma məhsulları, təbii bal, şokoladlı meyvə quruları, duzlanmış qoyun bağırsağı, dondurulmuş Xəzər kilkəsi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, dana qamışı, xromlanmış mal dərisi, polad armatur yayması, polad boru, polad kvadrat pəstah, Dağıstan turu, emu, Sultan toyuğu, nəcib maralın ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən şirkətlər arasında "AzərGold" "Baku Steel Company" "Atena", "AzVarvara" "T. Əhmədov adına AZNAR", məhsullar arasında isə qiymətli metallar (63%), polad armatur yayması (18,1%), pendir (8,6%), meyvə şirələri (2,4%), akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların əti (2,2%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 17 ölkəyə- İsveçrə (63%), Rusiya (15%), Gürcüstan (10,9%), Türkiyə (6%), Honqkonq (1%), digər ölkələrə (4,1%)- (ABŞ, Almaniya, Banqladeş, Belarus, Çin, Dubay, Yaponiya, Fil Dişi Sahili, Ukrayna, Özbəkistan, Qazaxıstan, Yeni Zelandiya, Misir, Malayziya, Kanada, İspaniya, Honkonq) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (63,2%), avtomobil ilə (32,8%), dəmiryolu nəqliyyatı (3%), qarışıq nəqliyyat növləri ilə ixracı isə (1%) təşkil edir.

Bu ilin oktyabr ayında AQTA-dan 14 subyekt qeydiyyatdan keçmişdir.

Cari ilin oktyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 205,579 (205,6) min ABŞ dolları dəyərində idxal fitosanitar icazəsi üçün müraciətlər daxil olmuşdur. Sertifikat alan şirkətlər arasında "Agro Alliance", "AgroBridge","AzərMaya", "Sənan 1978", "Muğan Agro", KDYLogistik" şirkətləri var.

# 2020-Cİ İLİN **oktyabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**

2020
İXRAC İCMALI
OKTYABR



CARI İLİN OKTYABR AYINDA **"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə

# ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ



CARI İLİN OKTYABR AYINDA **"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
# ƏN ÇOX İXRAC OLAN ÖLKƏLƏRİN BÖLGÜSÜ



## CARI İLİN OKTYABR AYINDA **"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə **İxrac edilən məhsulların NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**






**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.


iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


